## MEDİA VƏ İNFORMASİYA SAVADLILIĞI RƏQƏMSAL SAVADLILIQ FONUNDA

**Vəfa İsgəndərova**

*BDU, Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının dosenti*

**Xülasə**

*Media və informasiya savadlılığı insanlara informasiya və rəqəmsal alətlərdən istifadə haqqında tənqidi düşünməyə imkan verir. O, insanlara sülh quruculuğunda, bərabərlikdə, söz və ifadə azadlığında, qarşılıqlı dialoqda, məlumat əldə etməkdə və davamlı tərəqqidə necə iştirak etdikləri barədə məlumatlara söykənən seçimlər etməyə kömək edir. Rəqəmsal savadlı auditoriya müəyyən qədər media və informasiya savadlı olmağa məcbur olur. Ümumən, hər iki yanaşma arasında bir sıra təməl fərqlər vardır. Məqalədə onlara arasında olan oxşar və fərqli elementlər araşdırılır.*

***Açar sözlər:** media, informasiya, savadlılıq, rəqəmsal dövr, internet, texnologiya*

### Giriş

Rəqəmsal dövr iqtisadi proseslər və cəmiyyət daxilində bilik dövriyyəsinin sürətini və genişliyini artıran texnologiya ilə xarakterizə olunur. İkinci nəsil internetin geniş vüsət aldığı bir zamanda rəqəmsallılıq informasiya dövriyyəsinin nəinki çox yüksək olduğu, həm də getdikcə insanların nəzarətindən çıxdığı, həyatımızın idarə olunmasının çətinləşdiyi bir dövrə çevrildiyi təkamül sisteminin inkişafı kimi qəbul edilə bilər. Bu baxımdan rəqəmsal savadlılıq media və informasiya savadlılığı təcrübələri üçün "çətir" funksiyasını daşıyır. Çünki hər iki yanaşmanın inteqrasiyası məhz rəqəmsal texnologiyalar haqqında biliklərdən, onunla rəftardan və tənqidi təfəkkürün formalaşmasından keçir.

### Mövzunun konseptuallaşdırılması

Çox vaxt rəqəmsal vətəndaşlıq, media və informasiya savadlılığı ilə qarışdırılır. Qeyd etdiyimiz kimi, media və informasiya savadlılığının ortaq və fərqli cəhətləri var. Ortaq cəhəti odur ki, hər iki konseptin əsasını media və onun cəmiyyətdəki rolunu anlamaq məsələləri təşkil edir. Qısa şəkildə elmi və nəzəri ədəbiyyatlarda MİS (ing: MIL) kimi təqdim edilən media və informasiya savadlılığı demokratik cəmiyyətlərdə 21-ci əsrdə insanlar üçün vacib olan tənqidi düşünmə, təhlil, özünüifadə və yaradıcılıq üçün zəruri olan bəzi iddialı bacarıqları özündə ehtiva edir. Yəni kommunikasiyanın bütün formalarından istifadə edərək hər gün rastlaşdığımız və müasir cəmiyyətdə böyük rol oynayan informasiyanı əldə etmə qabiliyyəti, onun gücünü qiymətləndirmək, təhlil etmək və yaratmaq, onunla düzgün davranmaq kimi anlaşılır.

Mütəxəssislərin fikrincə, medianın bütün mesajları kodlaşdırılır, yəni şifrələnir, odur ki, media savadlı auditoriya bu şifrəni açmaq qabiliyyətinə malikdir. Media savadlılığının ortaq cəhəti onların hər ikisinin media ilə bağlı olmasıdır. Ancaq media savadlılığı daha çox əhalinin bütün seqmentləri üçün nəzərdə tutulur. Belə ki, müxtəlif təbəqələrdən ibarət olan insanların etibarlı media subyektlərinə girişini, medianın mesajlarını qiymətləndirməyi, onun təsiri altına düşməməyi, bəzən manipulyasiya qabiliyyətini, həmçinin müxtəlif formalarda media məhsulu istehsal etməyi aşılayır. "Əsasən, media savadlılığı insanlara media vasitələrində eşitdiklərinə, gördüklərinə və ya oxuduqlarına haqqında tənqidi düşünməyə kömək edə bilər. Daha dəqiq desək, media savadlılığı media sənayesinin necə işləməsini, media kontentinin özəlliklərini, media məhsulunun sosial təsirlərini anlamağı öyrədir" (https://pediaa. com/what-is-the-difference-between-information-literacy-and-media-literacy/).

İnformasiya savadlılığı isə fərdlərdən informasiyaya ehtiyac olduqda dərk etməyi və lazım olan məlumatı tapmaq, qiymətləndirmək və ondan səmərəli istifadə etmək bacarığına malik olmağı tələb edən və problemi həll etmək üçün bu məlumatı etik cəhətdən tətbiq etməklə bağlı bacarıqlar məcmusudur (https:// pediaa. com/what-is-the-difference-between-information-literacy-and-media-literacy/). Bundan əlavə, həqiqətən informasiya savadlı omaq üçün auditoriya rəqəmsal dünya ilə necə əlaqə quracağını, tapılan məlumatda hansı mənanı tapacağını, məlumatdan etik cəhətdən necə istifadə edəcəyini və məlumatı nüfuz və etibarlılıq baxımından necə qiymətləndirəcəyini dərindən bilməlidir. Bu zaman mütəxəssislər informasiyadan hər hansı bir problemi effektiv həll etmək üçün istifadə etməyi və ünsiyyətdə oynadıqları rolu da başa düşməlidirlər. Daha dəqiq desək, informasiya savadlılığı media savadlılığından fərqli olaraq, daha çox informasiya ilə peşəkar şəkildə məşğul olan vətəndaşlar, jurnalistika ilə məşğul olanlar üçün gərəklidir, media savadlılığı isə əsasən sadə insanlar, digər peşə sahibləri, bir sözlə, əhalinin bütün seqmentləri üçün nəzərdə tutulur.

### Tarixi və inkişaf tendensiyası

XX əsrin 60-cı illərədək media savadlılığı termin və ya konsepsiya kimi istifadə olunmamışdır. Ona qədər kommunikasiya alimləri bu barədə düşünür-





dülər. Onların düşüncələrini filosoflar, psixoloqlar, sosioloqlar, dilçilər, tənqidçilər formalaşdırırdılar. Onlar məlumatları yaddaşlarda saxlamağı düşünürdülər. ABŞ və Avropada 1920-30-cu illərdə qəzet, telefon, radio, televiziya kimi ənənəvi informasiya vasitələrinin kütləviləşməsi ilə birlikdə bu vasitələrdən bir tədris materialı olaraq istifadə ediləbiləcəyi düşüncəsi də sıx-sıx səsləndirilməyə başlanılmışdır. Sosialist ölkələri də medianın təhsildəki rolunu anladıqları zaman bu vasitələri tədris planına daxil etmişdirlər. XX əsrin 70-80-ci illərindən media tənqidinin tədrisi Avstraliya, Böyük Britaniya, Finlandiya, Fransa, Danimarka, Almaniya kimi ölkələrdə başlamışdır. Artıq bir çox ölkə media tənqidi ilə bağlı siyasətini müəyyənləşdirmişdir.

Medianın uşaq və gənclər üzərindəki mənfi təsirlərinin günü-gündən artması, onların media mövzusunda bilgiləndirmə və maarifləndirmə vacibliyini ortaya qoyur. Artıq başda ölkə idarəçiliyi (hökumətlər) olmaq üzrə, müxtəlif qurumlar və qeyri-hökumət təşkilatları, media ilə bağlı uşaq və gənclərin təhsilinə daha çox yer ayırır. Çünkü uşaq və gənclərin media ilə olan qarşılıqlı əlaqəsi hər keçən gün daha da artır.

### Media və informasiya savadlılığı rəqəmsal savadlılıq fonunda

Rəqəmsal texnologiyaların inkişafı ilə media haqqında məlumatlılıq həlledici əhəmiyyət kəsb edir. Media savadlılığı, informasiya savadlılığı və rəqəmsal savadlılıq media mesajlarına tənqidi yanaşmaya yönəlmiş ən çox yayılmış üç anlayışdır.

Media savadlılığının ən standart tərifi Media Savadlılığı üzrə Milli Liderlik Konfransının 1992-ci ildə müəyyən etdiyi: "müxtəlif formalarda mesajlara daxil olmaq, təhlil etmək, qiymətləndirmək və çatdırmaq bacarığı" kimi təqdim olunandır (Aufderheide, 1993 və Martens, 2010). Bu tərif müvafiq ədəbiyyatda geniş istifadə olunmuşdur. Martensin istinad etdiyi dörd aspekt, yəni media fenomenləri (media sənayesi, media mesajları, media auditoriyası və media effektləri) informasiya savadlılığının məqsədlərindən fərqlənir, burada diqqət mesaja deyil, əsasən sənədə verilir. İnformasiya savadlılığı nəşriyyat sənayesinin öyrənilməsini istisna edir və informasiya auditoriyasını və ya onun təsirlərini müzakirə etmir, çünki nəşriyyat sənayesinin redaksiya qiymətləndirməsi və resenziyasına görə "etibarlı" olduğu güman edilir (Martens, 2010).

Media və informasiya savadlılığı anlayışları üst-üstə düşür və ya bir-birini tamamlayır, çünki hər ikisi fərdlərdə eyni informasiya savadlılığı bacarıqlarını inkişaf etdirmək məqsədi daşıyır, lakin hər iki termin hər birinin əsas media hesab etdiyi informasiya konstruksiyalarında bir qədər ayrıdır. "İnformasiya savadlılığı kitabxanaşünaslıqdan yaranan bir termindir, ona görə də onun informasiyaya diqqəti əsasən çap olunmuş sözlərə, yəni kitablara, jurnallara və qəzetlərə yönəldilir. Bununla belə, konsepsiya, hər hansı bir müasir kitabxanada olduğu kimi, təkcə çap sənədləri deyil: filmlər, veb səhifələr, videolar və bütün növ elektron məlumatları, həmçinin şifahi məlumatları deyil, bütün media və qeydləri əhatə edir" (Bilik Cəmiyyətlərində İnformasiya Savadlılığı və Media Savadlılığının Konseptual Əlaqəsi, İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitu,

2015, s. 80-81). Digər araşdırıcılar da onları bir-birindən müəyyən qədər fərqləndirirlər. Ən əsası isə sözügedən sahələr rəqəmsal savadlılıq fonunda həyata keçirilir. İnformasiya və media savadlı olmağın məqsədi rəqəmsal cəmiyyətdə iştirak etməkdir; istifadə etməyi, başa düşməyi, soruşmağı, yaratmağı, ünsiyyət qurmağı və tənqidi düşünməyi bacarmalıdır. Müxtəlif formalarda mesajları effektiv şəkildə əldə etmək, təşkil etmək, təhlil etmək, qiymətləndirmək və yaratmaq qabiliyyətinə malik olmaq vacibdir. "Rəqəmsal savadlılıq isə rəqəmsal texnologiyalardan, kommunikasiya vasitələri və şəbəkələrindən informasiyanın yerləşdirilməsi, istifadəsi, qiymətləndirilməsi və yaradılması üçün istifadəni nəzərdə tutur" (http://panchoregimar12345. blogspot. com/2018/01/what-is-media-and-information-letiracy. html).

Hələ 1983-cü ildə F. W. Horton, Jr iddia etmişdir ki, "Bir sözlə, informasiya savadlılığı kompüter savadlılığından kənara çıxır və istifadəçilərin maşınla işləyən onlayn verilənlər bazaları; telekommunikasiya xidmətləri; elektron poçt; xarici informasiya resursları; erkən-xəbərdarlıq xidmətləri kimi alətlər və resurslar üzrə biliklərinin iş səviyyəsini yeniləyir (Horton, 1983, səh. 16).

Ümumən, bu termin kompüter savadlılığı və rəqəmsal media savadlılığı ilə yanaşı, son bir neçə onillikdə müxtəlif yollarla istifadə edilmişdir. İnformasiya və media peşələrində və daha geniş cəmiyyətdə insanların çoxu artıq bu anlayışları bir-birindən ayırmır.

Media savadlılığı və informasiya savadlılığı anlayışları məlumatın yerləşdirilməsi, axtarışı, qiymətləndirilməsi və istifadəsi kimi inkişaf etdirmək məqsədi daşıdıqları bacarıqlarda əhəmiyyətli dərəcədə üst-üstə düşür. Bununla belə, onlar müxtəlif məlumat kateqoriyalarına diqqət yetirirlər; biri kütləvi informasiya vasitələrində (mesajlarda), digəri isə məlumatda (sənəd/hiper-sənəd) yerləşdirilir (Bilik Cəmiyyətlərində İnformasiya Savadlılığı və Media Savadlılığının Konseptual Əlaqəsi, İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitu, 2015, s. 88).

Bu konsepsiyaların savadlılıq səylərinin MIL-də birləşdirilməsi onların təhsil məqsədləri baxımından böyük məna kəsb edir, çünki hər ikisi eyni pedaqoji strategiyanın bir hissəsi kimi öyrədilə və qiymətləndirilə bilər. İnformasiya savadlılığı media savadlılığını əhatə edir, çünki o, medianın bütöv müxtəlifliyini ehtiva edir.

**Nəticə**

Rəqəmsal dövrün sosial və iqtisadi nəticələri çox böyükdür və texnoloji funksionallıq daha çox biliyə əsaslanan, gündəlik həyatımız və özümüz haqqında anlayışımız onunla daha çox əlaqəli olduqda və o, özünəməxsus bir «həyat» aldıqda artacaq. Rəqəmsal eranın təkamül baxımından dərk edilməsi həm texnologiya ilə, həm də texnologiyanın bizə yaratmağa kömək etdiyi qabaqcıl biliklərlə davamlı sosial-iqtisadi əlaqələr qurmağımıza kömək edəcək. Bu baxımdan informasiya cəmiyyətlərində rəqəmsal media savadlılığı və onun fonunda media və informasiya savadlılığı konsepsiyaları həm media sferası, orada çalışanlar, həm də onun auditoriyası üçün çox vacibdir. Ona görə də onun bütün ölkələrdə tətbiqində və inkişaf etdirilməsində fayda vardır.





## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Patricia Aufderheide. Media Literacy. A Report of the National Leadership Conference on Media Literacy. 1993
2. Hans Martens. Evaluating Media Literacy Education: Concepts, Theories and Future Directions. 2010
3. Forest Woody Horton, Understanding information literacy: A primer. 1983
4. Bilik Cəmiyyətlərində İnformasiya Savadlılığı və Media Savadlılığının Konseptual Əlaqəsi, İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitu, 2015
5. https://pediaa. com/what-is-the-difference-between-information-literacy-and-media-literacy/).
6. https://citeseerx. ist. psu. edu/document?repid=rep1&type=pdf&doi=ee8c8305c25420976ce73e058a361ef9d0c50d4b#page=77
7. http://panchoregimar12345. blogspot. com/2018/01/what-is-media-and-information-letiracy. html
8. https://ifap. ru/library/book261. pdf


**Vafa Isgandarova**

### Media and information literacy in the context of digital literacy


**Summary**

*Media and information literacy enables people to think critically about the use of information and digital tools. It helps people make informed choices about how they participate in peacebuilding, equality, freedom of speech and expression, in mutual dialogue, access to information and sustainable development. A digitally literate audience is forced to become somewhat media and information literate. In general, there are several fundamental differences between the two approaches. Similar and different elements between them are examined in the article.*


***Keywords:*** *media, information, literacy, digital age, internet, technology*

**Вафа Искендерова**

### Медийно-информационная грамотность в контексте цифровой грамотности


**Резюме**

*Медийная и информационная грамотность позволяет людям критически относиться к использованию информации и цифровых инструментов. Это помогает людям сделать осознанный выбор в отношении того, как они участвуют в миростроительстве, равен-стве, свободе слова и выражения мнений, во взаимном диалоге, до-ступе к информации и устойчивом развитии. Цифровая грамотная аудитория вынуждена стать в некоторой степени медийно-информационной грамотностью. В целом между этими двумя под-ходами есть несколько принципиальных отличий. В статье рас-сматриваются сходные и различные элементы между ними.*


***Ключевые слова:*** *СМИ, информация, грамотность, цифровой век, интернет, технологии.*